Əliyev, İ. Vətən sevdası ilə əbədiyyətə qovuşdu / İmran Əliyev // Xalq qəzeti. - 2021. - 8 oktyabr. - № 216. - S. 10.

Bütün qələbələrimizin və uğurlarımızın memarı olan Prezident İlham Əliyev şəhidlərimiz haqqında demişdir: "Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. Allah sizə səbir versin. Siz analar, atalar xalqımız üçün, dövlətimiz üçün gözəl insanlar yetişdirmisiniz. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı". İndi haqqında söz açdığımız Rəşad Zeynallı da torpaqlarımızın azad olunması uğrunda canını fəda etmiş şəhidlərdəndir.

Rəşad Qiyas oğlu Zeynallı 21 aprel 1998-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 2004-2008- ci illərdə İ.Əfəndiyev adına Elitar Gimnaziyada, 2008-2015-ci illərdə P.Nəzərov adına 60 nömrəli tam orta məktəbdə təhsil alıb. Məktəbi bitirdikdən sonra Azərbaycan Texniki Universitetinin (ATU) "Cihazqayırma mühəndisliyi" fakültəsinə daxil olub. 2019-cu ildə ali təhsilini tamamlayıb.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Rəşad Zeynallı 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu tərəfindən düşmən işğalı altında olan ərazilərin azad edilməsi üçün başlayan II Qarabağ müharibəsində savaşıb.

Rəşad Zeynallı 8 oktyabr 2020-ci ildə Füzulinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamına əsasən Rəşad Zeynallı ölümündən sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüş tapşırıqlarının icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün "Vətən uğrunda" medalı ilə təltif edilib. Allah rəhmət etsin!